*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 oktyabr 2017-ci il № 79 (2196) Qiymәti 25 qəpik


# Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olunub, hərbi parad keçirilib




*Oktyabrın 18-də - Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olunub.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev tədbirə hazırlıq barədə Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri əsgərləri salamlayıb.

Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Dövlət Müstəqilliyi Gününün Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü ilə eyni vaxtda qeyd olunduğunu bildirib, əlamətdar bayramlar münasibəti ilə tədbir iştirakçılarını, eləcə də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublika ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini, bütün muxtar respublika əhalisini təbrik edərək deyib: “Müdriklər dövlətlərin qüdrətini onun ordusunun qüdrəti ilə ölçürdülər. İtalyan filosofu və mütəfəkkiri Nikolo Makiavelli özünün məşhur "Hökmdar" əsərində göstərirdi ki, bütün dövlətlərdə hakimiyyətin əsasını yaxşı qanunlar və yaxşı ordu təşkil edir".

Ali Məclisin sədri deyib: ümummilli liderimiz Heydər Əliyev Azərbaycana hər iki rəhbərliyi dövründə dövlət və ordu quruculuğu məsələlərini diqqətdə saxlamış, ordu quruculuğu sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirmişdir. Ölkəmizdə dövlət müstəqilliyi elan olunandan sonra bu müstəqilliyin qorunmasına da 1991-ci ilin sentyabrında Naxçıvanda ilk milli ordu qurumunun yaradılması ilə başlanılmışdır. O vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyən Ümummilli Liderimiz muxtar respublikanın sərhədlərinin möhkəmləndirilməsi və müdafiəsinin təşkili haqqında qərarlar qəbul etmiş, bununla da milli hərbi hissələrə və könüllü dəstələrə vahid rəhbərlik təmin olunmuşdur. 1992-ci il sentyabrın 15-də isə Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumu - 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmişdir. 25 il bundan əvvəl - 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilən ilk hərbi paradda ümummilli lider Heydər Əliyev deyirdi: "Biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı, nəhayət, öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır".

Qeyd olunub ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli Liderimiz ordu quruculuğunu dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirib, Silahlı Qüvvələrimiz mühüm təşkilatlanma və inkişaf yolu keçib. Ümummilli Liderimizin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərinin diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da artıb, maddi-texniki bazası möhkəmləndirilib, hərbçilərin sosial-məişət şəraiti yaxşılaşdırılıb. Hazırda müasir texnikalarla təchiz edilmiş Azərbaycan Ordusu yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdir. Ali Baş Komandan Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə də xüsusi diqqət yetirir. Ölkə Prezidentinin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, Naxçıvanda 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Naxçıvanın etibarlı müdafiəsi ilə bağlı görülən tədbirlərin davamıdır.

**(Ardı 2-ci səhifədə)**

# Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü qeyd olunub, hərbi parad keçirilib





(Əvvəli 1-ci səhifədə)

Ali Məclisin sədri deyib: “Bu gün Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki təminatı davamlı olaraq möhkəmləndirilir, şəxsi heyətin döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı artırılır. Son 25 il ərzində muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı məqsədyönlü tədbirlər həyata keçirilmiş, müxtəlif hərbi təyinatlı 214 obyekt istifadəyə verilmişdir. Əlamətdar yubiley günündə yeni Təlim-Tədris Mərkəzinin istifadəyə verilməsi də ordu quruculuğu sahəsində görülən işlərin davamıdır.”

Ali Məclisin sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsində, buradakı ordu hissələrinin formalaşmasında Türkiyə Respublikasının təmənnasız köməkliyinə görə qardaş Türkiyə dövlətinə, xalqına və Silahlı Qüvvələrinə hörmət və ehtiramını bildirib.

Daha sonra Ali Məclisin sədri şəxsi heyətə müraciətlə deyib: “Bu gün sizin qarşınızda mühüm vəzifələr dayanır. Bilirik ki, daim şərəfli əsgər və zabit adını doğrultmağa çalışır, Vətənə, ümummilli lider Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirsiniz. Naxçıvan Muxtar Respublikasının fəal strateji mövqedə yerləşməsi sizin üzərinizə düşən məsuliyyəti daha da artırır. Bu gün Silahlı Qüvvələrimizin muxtar respublika ərazisindəki hərbi hissələrində olan birlik, vətənpərvərlik və yüksək döyüş əhvali-ruhiyyəsi torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir. İnsanlar muxtar respublika ərazisindəki ordu birləşmə və hissələrinə güvənərək rahat yaşayır, təsərrüfatlarını genişləndirir, muxtar respublikanın inkişafına öz töhfələrini verirlər.”

Ali Məclisin sədri Əlahiddə Ümumqoşun Ordunun qarşısında duran vəzifələrin bundan sonra da peşəkarlıqla icra ediləcəyinə əminliklə bir daha Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibəti ilə tədbir iştirakçılarını və şəxsi heyəti təbrik edib, çıxışını Ali Baş Komandan cənab İlham Əliyevin fikirləri ilə tamamlayıb: "Bu gün Azərbaycan xalqı vahid amal ətrafında birləşib - ölkəmizi daha da gücləndirməliyik, müstəqilliyimizi daha da möhkəmləndirməliyik, ordumuzun gücünü daha da artırmalıyıq ki, ərazi bütövlüyümüzü bərpa edək".

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev tədbirdə çıxış edərək deyib ki, bu gün muxtar respublikada hərbi xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb. “Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazası möhkəmləndirilib, ordu ən müasir silahlarla təchiz olunub, Əlahiddə Aviasiya hərbi hissəsi yaradılıb. Muxtar respublikadakı bütün hərbi hissələr, xüsusilə də müdafiə zolağında yerləşən döyüş mövqeləri əsaslı şəkildə yenidən qurulub, xidmətin nümunəvi təşkili üçün lazımi şərait yaradılıb. Həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə səbəb olub.”



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək deyib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu tədbirləri bu gün Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin etibarlı təşkili ölkəmizdə həyata keçirilən ordu quruculuğu tədbirlərinin əsas istiqamətlərindəndir. Muxtar respublikada Əlahiddə Ümumqoşun Ordunun yaradılması və onun müasir silah, döyüş texnikası, aviasiya, hava hücumundan müdafiə qurğuları ilə təchiz olunması bu sahədə görülən işlərin tərkib hissəsidir. Bu gün Əlahiddə Ümumqoşun Ordu istənilən döyüş tapşırıqlarını yerinə yetirməyə qadirdir.”

Zakir Həsənov Naxçıvanda ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə şəxsi heyətə təbriklərini çatdırıb.

Sonra Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi parad keçirilib.

Hərbi paradda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordunun, birləşmə və hissələrinin 2 min nəfərə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən 10-dan artıq döyüş vertolyotu və təyyarəsi iştirak edib. Hərbi paradı minlərlə muxtar respublika sakini izləyib.

Paradda ilk olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı altında Heydər Əliyev adına Hərbi Liseyin kursantları meydana daxil olublar. Bu gün Heydər Əliyev adına Hərbi Lisey mötəbər hərbi təhsil müəssisəsinə çevrilib. Gələcəyin zabitləri üçün hər cür tədris şəraiti yaradılıb. Liseyin məzunları Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif bölmələrində ləyaqətlə xidmət edir, Naxçıvanın qədim hərb ənənələrini şərəflə yaşadırlar.

Əlahiddə Ümumqoşun Ordunun mexanikləşdirilmiş, motoatıcı, xüsusi təyinatlı, kəşfiyyat, dağ atıcı, tank, reaktiv artilleriya, hava hücumundan müdafiə və rabitə bölmələrinin, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki-müdafiə alayının şəxsi heyəti nizami addımlarla tribunanın önündən keçiblər.

Sonra hərbi texnikanın keçidi olub.

Əlahiddə Ümumqoşun Ordunun bayrağının ardınca üzərində tank əleyhinə idarə olunan "SPAYK" raket kompleksləri quraşdırılmış "Qred Vul" avtomobilləri, "Ştorm-3" Sofa maşını, "Kobra" yüngül zirehli transportyoru, iriçaplı pulemyot quraşdırılmış "Sandkat" avtomobilləri meydana daxil olub. Azərbaycanda istehsal olunan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan "Marauder" zirehli döyüş maşınları, "Orbiter-3B" pilotsuz uçuş aparatları tribuna önündən keçib. Sonra dağlıq ərazidə aparılan döyüşlərdə yüksək manevrliliyi ilə seçilən "Lançer" reaktiv artilleriya kompleksi, "Sani" minaatanları, avtomobillər üzərində quraşdırılmış müxtəlif markalı artilleriya qurğuları, tank əleyhinə "D-44" topu və "MT-12" topları, atəş dəqiqliyi və effektivliyinə malik "D-30" haubitsası, "D-20" və "M-46" top haubitsası, atəş uzaqlığı 35 kilometrə qədər olan "Qiasint-B" topları nümayiş olundu.

Hərbi paradda "BM-21 Qrad", "Qrad-LAR", "Sakarya", "Qasırğa" yaylım atəşli reaktiv sistemləri, "Smerc" döyüş maşını, idarəetmə məsafəsi və məhvetmə imkanı artırılmış "OSA", "S-125" zenit raket kompleksləri, zirehli transportyor "BTR-82A", piyadaların döyüş maşınları 2 və 3, özüyeriyən tank əleyhinə "Xrizantema" kompleksi, müasir aşkaretmə, izləmə və atəşaparma cihazları ilə təchiz olunmuş "T-72 M1" və "T-90C" tankları, eləcə də "T-90C" tankı üzərində quraşdırılmış "TOS-1A" reaktiv sistemi və özüyeriyən artilleriya qurğusu "Qvozdika" keçidi davam etdirib. Əlahiddə Ümumqoşun Ordunun silahlanmasında olan silah və texnika kolonunu "ZQ-23-2" zenit qurğularının keçidi tamamlayıb.

"Mİ-17-1V" hərbi vertolyotu Azərbaycan bayrağını dalğalandırıb, "SU-25" döyüş təyyarələri, "Mİ-17-1V" və "Mİ-35M" vertolyotları müxtəlif döyüş düzülüşündə səmanı fəth ediblər. Bununla da hərbi parad başa çatıb.

Müstəqillik günündə Naxçıvanda ilk milli hərbi hissənin yaranmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradın keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı birləşmə və hissələrin güc və qüdrətini bir daha nümayiş etdirib.

**AZƏRTAC**

# Əlahiddə Ümumqoşun Ordunun yeni Təlim-Tədris Mərkəzi istifadəyə verilib

*Oktyabrın 18-də Əlahiddə Ümumqoşun Ordunun yeni Təlim-Tədris Mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açılış tədbirində iştirak edib.*



Tədbirdə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanlarının, bir qrup hərbçiyə isə Ali Məclis sədrinin hədiyyələrinin təqdimatı olub.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 17 oktyabr tarixli sərəncamı ilə hərbi xidmətdə səmərəli fəaliyyətinə görə 10 hərbçi "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə", 10 hərbçi isə "Rəşadətli əməyə görə" nişanları ilə təltif olunub.

Ali Məclisin sədri "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" və "Rəşadətli əməyə görə" nişanlarını, eləcə də hədiyyələri hərbçilərə təqdim edib.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüş hazırlıqlarının həyata keçirilməsində əldə etdikləri nailiyyətlərə, xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə bir qrup hərbi qulluqçuya "Şücaətə" görə və "Hərbi xidmətdə fərqləndiyinə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medallarını, bir qrup hərbi qulluqçuya isə vaxtından əvvəl hərbi rütbələri təqdim edib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Təlim-Tədris Mərkəzinin açılışını bildirən lenti kəsiblər.



Mərkəzlə tanışlıq zamanı qeyd olunub ki, 3 mərtəbədən ibarət olan binada simulyasiya mərkəzi, trenajor zalı, zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, mətbəə, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı vardır. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulubdur.

Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə 18 trenajor quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması üzrə təlimlərin keçirilməsi öyrədiləcəkdir. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verəcəkdir.

Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi



üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik 100 kompüter və proyektorlar quraşdırılıb. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarəolunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyinin müqayisə etmək mümkündür.

Tədbir zalına baxış zamanı Əlahiddə Ümumqoşun Ordunun keçdiyi inkişaf yolundan bəhs edən film göstərilib.

Kitabxanada Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən artıq kitab, qəzet və jurnal materialları qoyulub. Burada şəxsi heyət üçün gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı vardır. Həmçinin kitabxanada Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 28 avqust tarixli sərəncamına uyğun olaraq "Oxunması zəruri olan kitablar"dan ibarət guşə də yaradılıb.

Ali Məclisin sədri Təlim-Tədris Mərkəzinin imkanlarından səmərəli istifadə olunması, şəxsi heyətin nəzəri biliklərinin və döyüş hazırlığının daha da artırılması ilə bağlı tapşırıqlar verib.

**AZƏRTAC**

## ATƏT sədrliyi Azərbaycan və Ermənistan prezidentlərinin görüşünə dair bəyanat yayıb

*Bu il ATƏT-in fəaliyyətdə olan sədrliyi Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT Minsk Qrupunun həmsədrlərinin təşəbbüsü ilə Cenevrədə keçirilən görüşü barədə bəyanat yayıb.*

AZƏRTAC-ın məlumatına görə, ATƏT-in rəsmi səhifəsində yerləşdirilmiş bəyanatda bildirilir ki, ATƏT-də sədrliyi həyata keçirən Avstriya tərəfi prezidentlərin görüşünü diqqətlə izləyib və hər iki ölkə prezidentinin yeni səylərini alqışlayır.

Sədrliyin mətbuat nümayəndəsi bildirib: "Biz yeni impulsları və prezidentlərin danışıqlar prosesini intensivləşdirmək üçün tədbirlər görməsini və təmas xəttində gərginliyin azaldılması üçün əlavə addımlar axtarmasını görməkdən məmnunuq".

Bəyanatda, həmçinin qeyd edilib ki, sədrlik bu yeni səylərin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün konkret addımlarda öz əksini tapacağına ümid bəsləyir. "Cəhdlərin mərkəzində sülh planlaşdırılması durmalıdır. ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik tərəfindən təmsil olunan ATƏT sədrliyi münaqişə tərəflərinin sülhə nail olması üçün göstərdiyi səylərini bundan sonra da dəstəkləməkdə davam etməyə hazırdır", - deyə bəyanatda vurğulanır.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*20 oktyabr 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 143 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## General-polkovnik Zakir HƏSƏNOV:

# Əlahiddə Ümumqoşun Ordu qarşıya qoyulan bütün vəzifələri yerinə yetirməyə qadirdir

Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi parad yüksək səviyyədə keçdi. Paradda ən müasir silahlar və texnikalar nümayiş olundu. Bunların hamısı Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordunun sahib olduğu müasir silahlar və texnikalardır. Bu baxımdan əminliklə demək olar ki, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyəti xeyli gücləndirilib və Əlahiddə Ümumqoşun Ordu qarşıya qoyulan bütün vəzifələri yerinə yetirməyə hazırdır, buna tam qadirdir.




AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 18-də Naxçıvan şəhərində keçirilən paraddan sonra mətbuat nümayəndələrinə açıqlama verən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirib.

Zakir Həsənov deyib: "Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Naxçıvanın müdafiə potensialının daim gücləndirilməsinə xüsusi diqqət yetirir. O da məlumdur ki, Ali Baş Komandanın son illər ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan Silahlı Qüvvələri bölgənin ən qüdrətli ordusuna çevrilib. Bu gün beynəlxalq araşdırma mərkəzləri dünyanın ən güclü ordularının siyahısını tərtib edərkən Azərbaycan Ordusuna da xüsusi diqqət ayırırlar. Bir sıra ölkələrin yer aldığı reytinq siyahısında Azərbaycan Ordusu layiqli yerini tutur".

Reytinq siyahısı müəyyənləşdirilərkən çox mühüm məsələlərin, xüsusən, orduların döyüş hazırlığı səviyyəsinin nəzərə alındığını qeyd edən Müdafiə naziri vurğulayıb ki, Azərbaycan Ordusunun yüksək döyüş hazırlığı, nizam-intizamı və vətənpərvərliyi xüsusi qeyd olunur.

Nazir bildirib ki, bu il keçirilən təlimlərdə Naxçıvanda yerləşən Əlahiddə Ümumqoşun Ordu Silahlı Qüvvələrdə döyüş hazırlığına, nizam-intizamına görə birinci yeri tutub. Bu da onu göstərir ki, Ali Baş Komandanın bütün tapşırıqları burada dəqiqliklə yerinə yetirilir.

"Naxçıvanda dəfələrlə döyüş atışlı təlimlər keçirilib. Bu təlimlərdə qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələrinin bölmələri də iştirak ediblər. Ötən günlərdə Tbilisidə Gürcüstan, Türkiyə və Azərbaycan Müdafiə nazirlərinin üçtərəfli görüşü olub. Həmin görüşdə plana uyğun olaraq ikitərəfli və üçtərəfli hərbi təlimlərin keçirilməsi barədə razılıq əldə edilib. Bütün bunlar yaxın vaxtlarda icra olunacaq", - deyə general-polkovnik Zakir Həsənov deyib.



## "Xidmətimə qiymət verildiyinə görə qürurluyam"

Ordu quruculuğunda qazanılan uğurlar ilk növbədə özünü Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş hazırlığında göstərir. Hazırda dövlət rəhbərliyinin orduya göstərdiyi diqqət və qayğı sayəsində regionda güc sahibi olan, müasir silah və texnika ilə təchiz edilən ordumuz formalaşıb. Silah və texnikanı bacarıqla idarə edən, daim nümunəvi xidmətləri ilə fərqlənən və yuxarı komandanlıq tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılan hərbi qulluqçularımızla hər görüş bizi də qürurlandırır.

Bu yaxınlarda Müdafiə naziri general-polkovnik Zakir Həsənov nazirliyin digər rəhbər heyəti ilə birlikdə ön xətdə olub. Yeni tikilən hərbi hissənin açılışından sonra döyüş növbətçiliyini yoxlayan nazir nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə təltif edib. Həmin hərbi qulluqçulardan birini - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Altun Əliyevi sizlərə tanıtmaq istəyirəm.

Altun Tovuz rayonundandır. Bir ildir bu hərbi hissədə xidmət edir. Qısa vaxtda öz çalışqanlığı ilə komandanlığın rəğbətini qazanıb. Dəfələrlə komandanlıq tərəfindən təşəkkür və fəxri fərmanla təltif olunub. Bu gün Altun Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ona hədiyyə etdiyi saatı qolunda qürurla gəzdirir. Onun sevinci, fərəhi elə gözlərindən də sezilir.

- Çox sevinirəm ki, cənab nazirimizlə görüşüb, qiymətli hədiyyə alanların sırasında olmuşam, - əsgər deyir. - Həmin gün həyatıma qızıl hərflərlə yazıldı. Heç vaxt nə həmin anı, nə də aldığım bu qiymətli hədiyyəni unutmaram. Bundan sonrakı xidmətimlə mənə göstərilən yüksək etimada layiq olmağa çalışacağam.

Altun deyir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənova dönə-dönə minnətdarıq, çünki birbaşa bölmələrimizə gələrək xidmətimizi qiymətləndirir. "Nazir mövqedə xidmətimizlə, şəraitimizlə yaxından maraqlandı. O, mənə saat hədiyyə edəndə daşıdığım formanın, seçdiyim peşənin məsuliyyətini daha da dərindən dərk etdim. Bundan sonra da daha nümunəvi xidmət edəcəyimə söz verdim.

Altun kimi gəncləri tanıdıqca biz də fərəhlənirik. Çünki Vətəni sevmək, qorumaq, onun uğrunda can fəda etmək hər şeydən müqəddəsdir. Vətən bacarıqlı, çalışqan insanların çiynində yüksəlir.

İnsan gördüyü işə qiymət verildiyini hiss etdikdə, daha da ruhlanır. Silahlı Qüvvələrin şəxsi heyəti də onlara göstərilən diqqət və qayğıdan fərəhlənir, xidmətdə daha da nümunəvi olmağa çalışır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışlarının birində dediyi "Vətəni müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir" sözləri dövlət rəhbəri tərəfindən hər bir əsgərimizə, Vətəni böyük məsuliyyətlə qoruyan bir döyüşçüyə verilən ən yüksək qiymətdir.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

## Vətəndaşlıq borcu - əsgər şərəfi

*Ön xətdə yerləşən "N" hərbi hissəsinin döyüş mövqeyindəyik. Səngərdə düşmənlə üzbəüz dayanan, torpaqlarımızın keşiyini çəkən Azərbaycan əsgəri ilə görüşün sevincini yaşayırıq.*



İlk həmsöhbətim manqa komandiri kiçik çavuş Rahib Verdiyevdi. O, mövqedə yaradılan şəraitdən, şəxsi heyətin nümunəvi xidmətindən söz açır: "Ali Baş Komandan İlham Əliyev və ordu rəhbərliyi tərəfindən göstərilən yüksək diqqət və qayğı şəxsi heyətimizin döyüş əzmini daha da artırıb, hər bir kəsdə Vətənə, torpağa sədaqət hissini, qələbə ruhunu yüksəldib. Burada da əsgərlərimizin yüksək nizam-intizama, döyüş və mənəvi-psixoloji hazırlığa sahib olmaları göz önündədir".

Manqa komandirinə qəzetimiz üçün "Nümunəvi xidmət" rubrikasına yazı hazırlamaq istəyimi bildirdikdə kiçik çavuş Rahib Verdiyev heç kəsi fərqləndirmək istəmədi. "Biz bir ailəyik və hər kəs nümunəvi xidmət edir. Hər bir hərbi qulluqçu anlayır ki, Vətənimizin müdafiəsində mətin dayanmaq onun əsas borcudur. Ona görə də şəxsi heyətin arasından seçim etmək, kimisə fərqləndirmək çətindir. Müəllimlərimdən biri həmişə deyirdi ki, şagirdlərimizi müqayisədə fərqləndirmək mümkündür. Ona görə də müqayisədə əsgər Xəqani Kərimovun adını qeyd etmək istərdim".

Söhbət zamanı öyrənirəm ki, əsgər Xəqani Kərimov ordu sıralarına Quba rayonundan çağırılıb və 10 aydır torpaqlarımızın müdafiəsində onun da töhfəsi var. Ürəyi qisas hissi ilə alışıb yanan, torpaqlarımızı düşməndən azad etmək, şəhidlərimizin qisasını almaq arzusu ilə yaşayan əsgər güclü Azərbaycan Ordusu sayəsində tezliklə vüsalına çatacağını bildirir: "Məktəb illərində müəllimlərimdən və valideynlərimdən ermənilərin bizim xalqın başına gətirdiyi əzab-əziyyətlər, vəhşiliklər haqqında çox eşitmişəm, Milli Qəhrəmanımız Çingiz Mustafayevin Qarabağda lentə aldığı görüntüləri çox izləmişəm. Bütün bunlar qəlbimi parçalayırdı. İnsanlığa yad olan hərəkətlərin, xalqımızın başına açılan oyunların qisasını almaq üçün bu formanı geyinmək qərarına gəldim. Fəxr edirəm ki, bu gün güclü Azərbaycan Ordusunun əsgəriyəm. Ordumuz mənim timsalımda bütün Azərbaycan xalqını vüsalına çatdırmaq gücündədi".

Əsgər Xəqani Kərimov "nümunəvi xidmət etməyin sirri nədədir?" sualıma cavab olaraq onu da bildirdi ki, hər bir əsgər yoldaşı kimi o da xidmətini düzgün təşkil etməyə, verilən əmr və tapşırıqları vaxtında yerinə yetirməyə, sahib olduğu peşəyə dərindən yiyələnməyə, müasir silah və texnikanı mənimsəməyə çalışıb: "Mən fəxr edirəm ki, xidmətimi ön xətdə davam etdirirəm və xidmətimlə komandirlərimin, əsgər yoldaşlarımın rəğbətini qazanıram. İçimdən gələn məsuliyyət hissi, vətəndaşlıq borcu, əsgər şərəfi, torpaq təəssübkeşliyinin sayəsində başqa cür olmağa haqqım da çatmır. Gələcəkdə xidmətimi düzgün təşkil edəcək və hər zaman torpaqlarımızın keşiyində dayanaraq xalqımızı düşmənlərimizdən qoruyacağıq".

Söhbət zamanı əsgər Kərimov idmanın boks növü ilə məşğul olduğunu və dəfələrlə yarışlara qatılaraq nailiyyətlər əldə etdiyini bildirdi. Dünənin idmançısı, bu günün əsgəri olan X.Kərimov idmanı insanın formalaşmasında əsas amillərdən biri kimi qeyd etdi. "Fiziki cəhətdən möhkəm olmağımız üçün komandirlərimizin sayəsində burada idman şəhərciyi yaradılıb. Hər gün nizam qaydasına uyğun olaraq fiziki hazırlıq tədbirləri keçirilir. Hərbi qulluqçunun döyüş hazırlığı və fiziki hazırlığı yüksək səviyyədə olmalıdır".

Mərd oğullarımızla sagollaşıb yola düşürəm. Bir daha əmin oluram ki, işğal altında olan torpaqlarımızı azad etməyə hər zaman hazırıq.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Silahlı Qüvvələrdə Dövlət Müstəqilliyi Günü qeyd edildi

*26 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Xalq XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağı qaldırdı. Sonrakı dövrdə müstəqilliyimizin möhkəmləndirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın təkidi ilə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı müasir dövlətçiliyimizin bünövrəsi oldu. Hazırda bu dövlətçilik strategiyasını Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirir. Dövlət Müstəqilliyi Günü Silahlı Qüvvələrimizdə də qeyd olundu. Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi və Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə hərbi hissələrdə keçirilən tədbirlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*





Dövlət Müstəqilliyinin 26-cı ildönümü münasibəti ilə Hərbi Dəniz Qüvvələrinin matrosları Milli Azərbaycan Tarixi muzeyində ekskursiyada oldular. Azərbaycan tarixinin bütün dövrlərini əks etdirən 300 minədək eksponatın qorunduğu bu muzey məşhur neft sahibkarı, görkəmli xeyriyyəçi, ictimai xadim Hacı Zeynalabdin Tağıyevin 1895-1901-ci illərdə tikilmiş yaşayış mülkündə yerləşir. 2005-2007-ci illərdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə yenidən bərpa olunmuş bu binada, H.Z.Tağıyevin ev-muzeyi də fəaliyyət göstərir. Muzeyin iki mərtəbəsində Azərbaycan tarixinin ən qədim dövrlərindən XX əsrin 20-ci illərinədək inkişafını əks etdirən ekspozisiyalar təşkil olunub. Zəngin və qədim tariximizin hər hansı dövrünə, həmin dövrdə baş verən hər hansı mühüm hadisəyə, xalqımızın həyat və məişətinə aid dəyərli məlumat müvafiq eksponatlarda əksini tapıb.

Muzeyin tarixindən danışan bələdçi 2007-ci ildə başa çatan yenidənqurma işlərindən sonra Ali Baş Komandan İlham Əliyevin və Mehriban Əliyevanın Milli Azərbaycan Tarixi Muzeyinin açılışında iştirakından, Muzeyin fəxri qonaqlar kitabında yazdığı sözlərdən danışdı. Matrosların muzeylə tanışlığı başlandı.

* * *

"N" hərbi hissəsində təşkil olunan tədbirdə polkovnik Elşad Pənahov çıxış edərək şəxsi heyəti bayram münasibəti ilə təbrik etdi. "Müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir", - deyən zabit, bu sahədə Silahlı Qüvvələrin üzərinə böyük məsuliyyət düşdüyünü vurğuladı.

- Güclü ordu müstəqilliyin təminatçısıdır. Bu gün bizim güclü ordumuz var. Bütün zabit, gizir və əsgərlərin ürəyi bir arzu ilə döyünür: tezliklə torpaqlarımızı işğaldan azad etmək. Hərbi hissələrimizin şəxsi heyəti Ali Baş Komandanın döyüş əmrinə bir nəfər kimi hazırdır. Belə mötəbər günləri tezliklə ata-baba torpaqlarımızda qeyd etmək, üçrəngli bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə... dalğalandırmaq arzusu ilə hər birinizi bayram münasibəti ilə təbrik edir, şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Polkovnik-leytenant Zöhrab İmamquliyev də çıxış edərək hərbçiləri Mərkəzi Zabitlər Evinin kollektivi adından bayram münasibəti ilə təbrik etdi.

- Belə mötəbər günləri daim əsgərlərimizlə bir arada keçirməkdən sevinc hissi duyuruq, - polkovnik-leytenant dedi. - Azərbaycan əsgəri cəsurdur, mərddir və torpaqlarımızın keşiyində inamla dayanır. Xalqımızın hər bir vətəndaşı sizinlə qürur duyur, sizləri güvənc yeri bilir. Müstəqilliyimiz sizlərin və Vətən uğrunda fədakarlıq göstərmiş mərd oğulların vətənpərvərliyi, hərbi anda sadiqliyi, uğurlu xidməti nəticəsində qorunur və qorunacaqdır. Sizinlə fəxr edirik.

Müstəqilliyimiz, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizə xitabən, zalda əyləşən zabitlər, gizirlər və əsgərlərlə birgə "Şəhid varsa, torpaq da var, Vətən də, şəhidlərə ölüm yoxdur Vətəndə!" şüarını səsləndirən polkovnik-leytenant Zöhrab İmamquliyevin çıxışı hamını riqqətə gətirdi.

Tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin maraqlı konsert proqramı ilə yekunlaşdı.



* * *

Dövlət Müstəqilliyinə həsr olunmuş tədbirdə Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək bildirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanını qazandı. "Təəssüflər olsun ki, birinci dəfə bu imkan daxili çəkişmələr, xarici müdaxilə və beynəlxalq təminatın olmaması səbəbindən itirildi. Xalqımıza bu tarixi imkan bir də 71 ildən sonra nəsib oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu...

Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycana siyasi müdriklik gətirdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ulu Öndər qarşıya çıxan bütün sərhədləri yardı və qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi".

Müstəqillik Günü haqqında geniş məlumat verən muzey rəisi daha sonra dedi ki, Azərbaycanın dövlət müstəqilliyi uğrunda yorulmadan mübarizə aparan, bu işə dünya ölkələrinin potensial gücünün təsir qüvvəsini cəlb etməyə çalışan Ulu Öndər dəfələrlə demişdir ki, bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən, Cənubi Qafqaz regionunda möhkəm və ədalətli sülhə nail olmaqdan ibarətdir.

Polkovnik onu da qeyd etdi ki, müasir dövrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirir.

Müstəqillik Gününə həsr olunmuş qısametrajlı film nümayiş edildi.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun kollektivi adından muzeyə qədim və orta əsrlər dövrünə məxsus arxeoloji materiallar hədiyyə olundu.

Sonda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin və Dövlət Kukla Teatrının yaradıcı kollektivləri maraqlı proqramla çıxış etdilər.

* * *

"N" hərbi hissəsində keçirilən tədbirdə isə polkovnik-leytenant Əbülfət Xəlilov çıxış edərək şəxsi heyəti bayram münasibəti ilə təbrik etdi. "Müstəqilliyimizin qorunub saxlanmasında Azərbaycan Ordusunun rolu danılmazdır", - deyən zabit Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində hərbi qulluqçuların da üzərinə böyük məsuliyyət düşdüyünü qeyd etdi.

Polkovnik-leytenant Zöhrab İmamquliyev çıxış edərək hərbçilərimizi kollektiv adından bayram münasibəti ilə təbrik edərək bildirdi: “Torpaqlarımızın keşiyində inamla dayanaraq bizlərə rahatçılıq bəxş edən Azərbaycan əsgəridir. Azərbaycan xalqı sizlərlə qürur duyur, sizlərə inanır. Biz də həmişə sizlərə xidmət etməyə hazırıq".

Tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin maraqlı konsert proqramı ilə davam etdirildi.

(Ardı 7-ci səhifədə)

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Azərbaycan Respublikasının dövlət quruluşu.**
**2. Silahlı Qüvvələrin dövlət institutları arasında yeri və rolu.**

**Mövzu:** Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri, inzibati ərazi bölgüsü, iqtisadi inkişafı.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Azərbaycan Respublikasının dövlət quruluşu*

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətimizin Əsas Qanunu ümummilli lider Heydər Əliyevin sədrliyi ilə hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendumda qəbul edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında dövlət hakimiyyəti haqqında aşağıdakılar qeyd edilir:

- Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

- Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

- Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

- Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir.

- Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

**Azərbaycan Respublikasının dövlət qurluşunun siyasi əsasları bunlardır:**

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında aşagıdakı qaydada təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

**Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı müddəalar açıqlanır:**

- Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

- Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

- Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

- Azərbaycan Respublikası Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

- Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

- Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

- Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**Azərbaycan Respublikasının dövlət quruluşunun iqtisadi əsasları bunlardır:**

- Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

- Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

- İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

- Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Mərkəzi Banka mənsubdur. Mərkəzi Bank dövlətin müstəsna mülkiyyətidir.

- Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır.

### *Silahlı Qüvvələrin dövlət institutları arasında yeri və rolu*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Silahlı Qüvvələrin yaradılması zəruri oldu. Bu həm də ölkəmizə qarşı olan erməni təcavüzünün qarşısını almaq üçün zamanın əsas tələbidir. O dövrdə Silahlı Qüvvələrin formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi.

Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun 1-ci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Ordusu 1918-ci ildə yaradılmış Cümhuriyyət ordusunun varisidir. Məlumdur ki, ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 26 iyun Silahlı Qüvvələr Günü elan olunmuşdur. Bu, tarixi həqiqətin və milli ordu quruculuğunda varislik ənənələrinin bərpa edilməsi baxımından böyük əhəmiyyətə malik bir hadisədir. Bu gün Silahlı Qüvvələrimizin şəxsi heyəti sələflərimiz tərəfindən başlanan müqəddəs işi layiqincə davam etdirir və müstəqil ölkəmizin ordu quruculuğu tarixinə yeni-yeni parlaq səhifələr yazır.

Azərbaycan Respublikasının Əsas Qanununda - Konstitusiyasında da Silahlı Qüvvələrlə və Vətənin müdafiəsi ilə bağlı maddələr öz əksini tapmışdır.

Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. 76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır. Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün bir qanunun yox, qanunlar toplusunun qəbul edilməsi vacibdir. Odur ki, Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəllər qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr etdi. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın, əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək və həmçinin Azərbaycan Ordusu üçün kadrlar hazırlamaq və ordunun daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir. Bu Qanunla müəyyən edilmiş hədlərdə və növlərdə hərbi xidmət Azərbaycan vətəndaşları üçün məcburidir. 18 yaşına çatan və səhhətinə görə hərbi xidmətə yarayan kişi cinsindən olan hər bir vətəndaş ordu sıralarında 18 ay müddətində həqiqi hərbi xidmət keçməlidir.

Bu gün Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olunmuş, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaratmışdır.

Quru Qoşunları, Hərbi Dəniz, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının birləşmə və bölmələrində şəxsi heyətin intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar orduya çağırılan gənclərin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və formalaşmasına imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müasir standartlara cavab verən tədris bazası mövcuddur. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Gizirlər Məktəbi və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Ümummilli lider Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən Hərbi Akademiya fəaliyyətə başlamışdır.

Azərbaycan Ordusunun bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, dərslər keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır.

Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsinə və peşəkarlığına xidmət edir.

Azərbaycan Respublikasının 1994-cü ilin mayında NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması NATO ilə əməkdaşlıqda yeni bir mərhələ idi. Silahlı Qüvvələrimizdə sülhməramlı tabor yaradılmış və bu taborun bir taqımı müxtəlif vaxtlarda Türkiyə taborunun tərkibində Kosovoda, bir bölüyü isə İraqda beynəlxalq sülhyaratma missiyasını müvəffəqiyyətlə yerinə yetirib. Hazırda bir bölüyümüz Əfqanıstanda Türkiyə taborunun tərkibində xidmətini uğurla davam etdirir.

1991-1994-cü illərdə Ermənistan Respublikası havadarlarının köməyi ilə Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Azərbaycan dövləti ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında respublikamızın ərazi bütövlüyünün bərpası üçün bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də çox böyük işlər görmüşdür. Məlum olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri məşğul olur. Onların göstərdiyi səylərə baxmayaraq, hələ də münaqişənin həllində bir nəticə əldə edilməmişdir. Ermənistanın dövlət rəhbərliyinin destruktiv mövqe tutması onun münaqişənin həllinin uzadılmasında maraqlı olduğunu açıq-aşkar göstərir. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistan prezidenti ilə apardığı danışıqlarda nümayiş etdirdiyi qəti mövqe, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tələb etməsi Azərbaycan Ordusunun şəxsi heyətini də yeni uğurlara ruhlandırır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunun ölkəmiz üçün ən prioritet məsələ olduğunu dəfələrlə qeyd edərək, erməni təcavüzünün qarşısının alınması və gec-tez torpaqlarımızın ordumuzun gücü sayəsində düşmən işğalından azad olunacağını bir daha önəmə çəkərək Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında demişdir: "Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, biz bu torpaqlara qayıtmalıyıq və qayıdacağıq... Biz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəyik və ərazi bütövlüyümüzün bərpası bizim əsas vəzifəmizdir".

Hər birimiz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi tapşırığa daim sadiq qalaraq gündəlik fəaliyyətimiz dövründə öz vəzifə borcumuzu vicdanla yerinə yetirməli, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməli, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəmizi artırmalı, intizamlı olmalı və torpaqlarımızın azadlığı uğrunda müqəddəs bir missiyanın yerinə yetirilməsinə hazır olmalıyıq.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Silahlı Qüvvələrdə Dövlət Müstəqilliyi Günü qeyd edildi



(Əvvəli 5-ci səhifədə)

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Dövlət Müstəqilliyi Günü münasibəti ilə keçirilən tədbirdə polkovnik-leytenant Elvin Əzizov çıxış edərək bildirdi ki, müstəqillik haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsədə, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Ulu Öndərin ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdığını, müstəqil Azərbaycan Respublikasını möhkəm əsaslar üzərində inkişaf etdirdiyini, güclü ordunun müstəqilliyin qarantı olduğunu bildirən zabit müstəqillik dövründə ordu quruculuğunda gedən inkişafdan söz açdı: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən inamla, uğurla davam etdirilir. Hərbi sahədə əsaslı islahatlar aparılması ilə yanaşı, ordumuz yeni silah və texnikalarla təchiz edilir. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Ordumuz bu gün regionun ən güclü ordusu və xalqımızın güvənc yeridir".

26 illik müstəqillik dövründə Azərbaycanın bütün sahələrində gedən inkişafı, regionda iştirak etdiyi irimiqyaslı layihələri əks etdirən videoçarx nümayiş etdirildikdən sonra tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təqdim etdiyi maraqlı konsert proqramı ilə davam etdi.

* * *

Xalqımız üçün müqəddəs olan günlərdən biri də 18 oktyabrdır. 26 il əvvəl - 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Beləliklə, Azərbaycan 1920-ci ilin aprelində itirdiyi müstəqilliyini yenidən bərpa etdi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın bütün sahələrində böyük çətinliklər meydana çıxmışdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, doğma Vətənə tükənməz sevgisi ilə müstəqilliyimiz daha da möhkəmləndi.

20 sentyabr 1994-cü ildə ümummilli lider Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Bununla da, Azərbaycan ilk dəfə olaraq dünyaya sərvətlərinin mütləq sahibi olduğunu sübut etdi.

Ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirildi. Qısa müddət ərzində Azərbaycanın müstəqilliyinin təminatçısı olan güclü, qüdrətli Silahlı Qüvvələrimiz formalaşdı. Bu gün tam inamla deyə bilərik ki, Azərbaycan Ordusu dövlətimizin müstəqilliyini qorumağa və torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadir və hazırdır.

Müdrik rəhbərin böyük əziyyətlər bahasına qurub-yaratdığı müstəqil Azərbaycan bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında daha da inkişaf edir. Bu gün ölkəmizin üçrəngli bayrağı dünyanın ən nüfuzlu ölkələrinin bayraqları ilə bir sırada dalğalanır. Belə qüdrətli və müstəqil bir ölkənin vətəndaşı olmaqdan hamımız qürur duyur və fəxr edirik.

Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də müstəqilliyimizin bərpasının 26-cı illiyinə həsr olunmuş tədbir keçirildi. Mərasimi polkovnik-leytenant Kamran Nəsibov açıq elan etdi.

Tədbir iştirakçılarına müstəqilliyimizin tarixdən və ötən illər ərzində qazanılmış uğurlardan ətraflı məlumat verildi.

Çıxışlardan sonra "Heydər Əliyev və müstəqilliyimiz" mövzusunda qısametrajlı film nümayiş olundu. Hərbi liseyin Azərbaycan dili və ədəbiyyatı müəllimi Gülsəda Quluqızının təşkilatçılığı ilə hazırlanmış ədəbi-bədii kompazisiya nümayiş etdirildi.

Kursantlar qəhrəmanlığı, igidliyi, hərbi vətənpərvərliyi və müstəqilliyi tərənnüm edən şeirlər söylədilər.

* * *

"N" hərbi hissəsində də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi gününə həsr olunmuş təntənəli mərasim keçirildi.



Tədbir hərbi hissənin əsgər klubunda davam etdirildi. Polkovnik-leytenant Elnur Hüseynov xalqımızın qədim dövlətçilik tarixinə malik olduğunu, müstəqillik uğrunda yorulmadan mübarizə apardığını vurğuladı. Qeyd etdi ki, XX əsrdə xalqımız ikinci dəfə öz azadlığına, müstəqilliyinə qovuşdu. "Bununla da xalqımızın tarixində yeni dövr başlandı. Ancaq müstəqillik yolu xalqımız üçün asan olmadı. Ermənistan tərəfindən ölkəmizə qarşı əsassız torpaq iddiaları ilə müharibə başlandı və bəzi qüvvələr də ölkəmizi müstəqillik yolundan döndərməyə səy göstərdilər. Belə ağır dönəmdə xalqımız dünya şöhrətli siyasətçi Heydər Əliyevə üz tutdu. Böyük idarəetmə təcrübəsinə malik olan dahi şəxsiyyətin 1993-cü ildə siyasi hakimiyyətə tarixi qayıdışıyla ölkəmiz böyük təhlükələrdən, qarşıdurmalardan xilas oldu. Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğuna start verildi və qısa müddətdə böyük uğurlara imza atıldı. Silahlı Qüvvələrin formalaşmasına, ordunun təcrübəli kadrlarla təmin olunması ilə başlanıldı. Bəzi döyüş bölgələrində düşmənə qarşı uğurlu hərbi əməliyyatlar keçirildi və torpaqlarımız işğaldan xilas olundu.

Son illər ölkəmiz sürətlə inkişaf edərək beynəlxalq arenada imic qazanıb. Böyük quruculuq işləri Ulu Öndərin layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq respublikamız regionun lider dövləti, Azərbaycan Ordusu isə ən güclü, qüdrətli ordusudur. Çıxışımın sonunda qətiyyətlə demək istərdim ki, əsgər və zabitlərimiz torpaqlarımızın azadlığı urğunda Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdırlar".



Gəncə şəhər Mərkəzi Kitabxana Sisteminin direktor müavini Fəridə Qədimova, mayor Rəcəb Bəyəliyev və başqaları da çıxış edərək müstəqillik tariximizdən və Ulu Öndərin Vətənimiz, xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs etdilər.

Gəncə şəhər 25 saylı tam orta məktəbin və uşaq incəsənət mərkəzi şagirdlərinin çıxışları rəğbətlə qarşılandı. Müstəqillik tariximizə həsr olunmuş viktorinanın qalibləri mükafatlandırıldılar.

**"Azərbaycan Ordusu"**

---

*Qardaşımın qəfil xəstələnməsindən yaranan narahatlığa son qoyulduqdan sonra mən də başa düşdüm ki, həyat insanların xeyirxahlığıyla gözəlləşir. Sağlamlığımızın keşiyində dayanmağı özünə həyat amalı bilən həkimlər şəfa bəxş etdikləri xəstələrinin də ömründə yaşamaq hüququ qazanırlar.*

*Redaksiyamızın poçtundan*

# Sağlamlıq keşikçilərinə minnətdaram

Mən uzun illər Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsində işləmişəm. Ordumuzda aparılan son islahatlardan xəbər tuturdum. Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbi tibb sahəsinin də sürətli inkişafı məni sevindirirdi. Silahlı Qüvvələrin Baş Klinik Hospitalında da bir daha bunun şahidi oldum. Müasir avadanlıqlar, diaqnostik aparatlarla hərtərəfli müayinələr aparan bilikli, peşəkar həkimlərimizin sorağı respublikamızın hüdudlarından uzaqlara da yayılıb.

Bir bacının həyatında qardaşın yeri əvəzedilməzdir. Qardaşım Mirnağı Kamilov kəskin ürək ağrılarından əziyyət çəkirdi. Baş Klinik Hospitalın Ürək-Damar Cərrahiyyəsi şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Anar Əmraha müraciət etdik. Müayinələrdən sonra məlum oldu ki, açıq ürək əməliyyatı yeganə çıxış yoludur.

Beş saat çəkən ağır əməliyyat çox uğurla keçdi. Qardaşım indi özünü rahat hiss edir. Onun çöhrəsinə təbəssümü, sevinci, fərəhi ömrüm boyu unutmayacağım Anar Əmrah və onun rəhbərliyiylə Baş Klinik Hospitalın peşəkar və məsuliyyətli tibb heyəti qaytardı. Təcrübəli, savadlı həkimlərin, mehriban tibb bacılarının xəstə qardaşıma qədərsiz qayğıkeşliyini heç vaxt unudan deyiləm.

**Seyiddursun ABBASOVA,**
**Bakı şəhəri**

*Yeni kitablar*

# "Ali Baş Komandan İnstitutu"

*Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının dosenti, tarix elmləri doktoru Mehman Süleymanovun "Ali Baş Komandan institutu" adlı kitabı çapdan çıxıb ("Elm və Təhsil" nəşriyyatı, Bakı, 2017, 504 səh.). Hər bir ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsində, ölkənin müdafiəsinin təşkilində xüsusi əhəmiyyət kəsb edən Ali Baş Komandanlıq institutunun formalaşdırılmasının və səmərəli fəaliyyətinin təşkilinin nəzəri əsaslarının araşdırılmasına həsr edilən bu əsər Azərbaycan siyasətşünaslığında və tarixşünaslığında ilk dəfə geniş tədqiqatın obyektidir.*




İstər dünya, istər Azərbaycan xalqının uzunəsrlik tarixi, istərsə də Azərbaycanın müstəqillik dövrünün təcrübəsi təsdiqlədi ki, dövlətin müstəqilliyinin qorunub saxlanması, xarici təcavüzlərin qarşısının alınması ölkədə hərbi-siyasi hakimiyyətin üzvi şəkildə birləşdirilməsində, dövlətin və xalqın gücünün müdafiə işinə səfərbər edilməsində xüsusi əhəmiyyət kəsb edir. Bu vəhdət, bir qayda olaraq öz ifadəsini Ali Baş Komandanın şəxsində tapır. Ali Baş Komandanlıq institutunun formalaşdırılması hərbi və siyasi hakimiyyətin mərkəzləşdirilməsi, ölkənin bütün ehtiyatlarının vahid mərkəzdən idarə olunması, o cümlədən strateji vəzifələrin həlli üçün məsuliyyətin də bir orqanda cəmləşdirilməsi deməkdir. Bu isə daha çevik, daha səmərəli şəkildə lazımi vəzifələrin ölkənin canlı və maddi qüvvələrinin həllinə istiqamətləndirilməsinə imkan verir.

Ali Baş Komandanlıq institutunun formalaşdırılması, sadəcə olaraq, ölkə rəhbərinin ali baş komandan elan edilməsi və bunun müvafiq qanunvericilik sənəd-lərində təsbit olunması demək deyildir. İstər tarixi təcrübə, istərsə də tarix elmləri doktoru Mehman Süleymanovun araşdırması göstərir ki, bu institutun formalaşdırılması kifayət qədər mürəkkəb hərbi-siyasi bir prosesdir, bu prosesin öz qanunauyğunluqları var və onlara riayət edilməməsi ciddi hərbi-siyasi böhrana gətirib çıxara bilər. Azərbaycanın müstəqilliyinin ilk illərində respublikada Ali Baş Komandanlıq institutunun lazımi səviyyədə formalaşdırılmamasının hansı nəticələrə gətirib çıxarması bu deyilənə bir sübutdur. Əsərdə bu məsələ də araşdırılmışdır.

Ali Baş Komandanlıq institutunun işlək bir mexanizmə çevrilməsi üçün onun vasitələrinin nəzəri əsaslarının işlənib hazırlanmasına və uğurlu tətbiqinə böyük zərurət vardır. Adı çəkilən əsərdə göstərildiyi kimi, Ali Baş Komandanlıq institutunun üç başlıca vasitəsi vardır - hərbi siyasət, hərbi təşkilat və hərbi idarəetmə. Müəllif həm hərbi siyasəti, həm hərbi təşkilatı, həm də hərbi idarəetmənin mahiyyətini, funksiyalarını, qanun və prinsiplərini və digər məsələləri nəzəri baxımdan araşdırmışdır. Kitabda Ali Baş Komandanlıq institutunun mahiyyəti, hüquqi əsasları, fəaliyyət qanunauyğunluqları və prinsipləri, funksiyaları, milli və hərbi təhlükəsizliyin əsasları, Silahlı Qüvvələr və onun vəzifələri, ali hərbi idarəetmə orqanları və onların vəzifələri, hərbi doktrinanın və hərbi strategiyanın mahiyyəti və s. məsələlər araşdırılmışdır. Kitabda dünya hərb nəzəriyyəçilərinin və klassiklərinin Ali Baş Komandanlıq institutunun mahiyyəti və zəruriliyi haqqında dediyi fikirlər ümumiləşdirilmişdir.

Əsərdə Ali Baş Komandanlıq institutunun elmi nəzəri əsaslarının araşdırılmasına xüsusi diqqət yetirilməklə bərabər, müəllif haqlı olaraq belə bir qənaətə gəlir ki, Ali Baş Komandanlıq institutunun formalaşdırılması və onun fəaliyyətinin dövlətin və xalqın maraqlarına cavab verə biləcək səviyyədə təşkili yalnız nəzəri məsələlərin araşdırılması ilə tamamlanmır. Bu institutun səmərəli fəaliyyətinin təşkili baxımından Ali Baş Komandanın savadı, təcrübəsi, dövlətçilik keyfiyyətləri, siyasi intuisiyası və s. məqamlar xüsusi əhəmiyyət kəsb edir. Bu mənada Ali Baş Komandanlıq institutunun səmərəliliyi başlıca olaraq Ali Baş Komandanın biliyinin, təcrübəsinin və təşkilatçılıq keyfiyyətlərinin bacarıqla əlaqələndirilməsindən ibarətdir.

Əsər milli və hərbi təhlükəsizlik məsələləri ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

**"Azərbaycan Ordusu"**



# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri Hərbi Hava Qüvvələrinin bazasında olublar

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik plana əsasən, xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri oktyabrın 17-də Hərbi Hava Qüvvələrinin aviabazasında olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 17 ölkəni təmsil edən hərbi attaşelərə əvvəlcə hərbi hissə, onun yaranma tarixi barədə ümumi brifinq təqdim edilib. Aviabazada qonaqlar şəxsi heyət üçün yaradılan şəraitlə tanış olub, əsgər yeməkxanaları, yataqxanalarına, məşğələ otaqlarına baş çəkiblər. Silahlanmada olan aviasiya vasitələri ilə tanış olan qonaqlar şəxsi heyətin döyüş hazırlığı məşqlərini də izləyiblər.

Zabit yeməkxanasında nahar edən hərbi attaşelər hərbi hissədə yaradılmış xidmət və məişət şəraitindən, döyüş hazırlığı və tədrisin səviyyəsindən məmnun qalıblar.

Qonaqlar səfərin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# İstiqlalımız qürur yerimizdir

Müstəqillik, azadlıq sözlərinin mənasını sözlə ifadə etmək olmur. Onu gərək yaşayaraq öyrənəsən.

Bir xalqın böyük fədakarlıqla əldə etdiyi müstəqilliyi qoruyub saxlamaq isə onu qazanmaqdan çətindir. Elə Azərbaycan xalqı da bu yolda çox çətinliklər gördü, əzab-əziyyət çəkdi. Ancaq yorulmadan və qətiyyətlə gələcəyinə ümid bəslədi. Eyni bir əsrdə müstəqilliyimizi iki dəfə qazanmışıq. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin dövrü cəmi 23 ay oldu.

Nəhayət, ötən əsrin sonlarında Sovet imperiyası süquta uğradı və müstəqilliyimiz üçün əlverişli şərait yarandı. 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Sovetinin növbəti sessiyasında dörd günlük müzakirədən sonra "Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi.

Mən də bir Azərbaycan vətəndaşı olaraq oxuduqlarımdan, eşitdiklərimdən yaxşı bilirəm ki, müstəqil dövlətçiliyimizin qorunub saxlanması ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Onun qurub yaratdığı bir dövlətdə yaşadığım üçün əminliklə deyə bilərəm ki, tam və qəti surətdə azadıq. Qürurluyam ki, əzəmətli üçrəngli bayrağımız, bizi digər ölkələrdən fərqləndirən möhtəşəm himnimiz vardır. Müstəqilliyimizin daha da möhkəmlənməsində hər birimiz məsuliyyət daşıyırıq!..

**Hüsniyyə İDRİSOVA,**
**Bakı Slavyan Universitetinin Azərbaycan filologiyası və jurnalistikası fakültəsinin I kurs tələbəsi**

# Gənc zabitlər xidmətə başlayır



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ehtiyat zabit hazırlığı kursunu başa vuran kursantların buraxılış mərasimi keçirilib. Mərasimdə Təlim və Tədris Mərkəzinin kollekivi ilə yanaşı, kursantların valideynləri və yaxınları da iştirak edib. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

General-mayor Gəray Bağırov çıxış edərək leytenant rütbəsi almış gəncləri təbrik edib, onlara tövsiyələrini və tapşırıqlarını çatdırıb:

- Azərbaycanın ordu quruculuğunda zabit hazırlığı daim diqqət mərkəzindədir. Güclü ordu savadlı, bacarıqlı, vətənpərvər zabitlərin hesabına formalaşır. Zabit ordunun əsas sütunudur. Hər bir zabit tabeliyində olan şəxsi heyət üçün şəxsi nümunədir. Vətənpərvərliyi, qorxmazlığı, Vətən sevgisi ilə əsgərlərinə nümunə olan komandir, döyüş meydanında əsgərləri də ruhlandırmağı bacarır. Mən inanıram ki, təyin olduğunuz hərbi hissələrdə layiqli xidmət edəcək, müəllimlərinizin öyrətdikləri hərbi biliklərdən layiqincə yararlanacaqsınız. Hər biriniz Azərbaycan Ordusuna layiqli zabit olacaq, tabeliyinizdəki şəxsi heyətin yüksək döyüş ruhunda formalaşması və hərbi biliklərə yiyələnməsinə nail olacaqsınız. Əziz valideynlər, bu gün sizlər üçün də əlamətdar gündür. Sizin övladlarınız hərbçi peşəsinə yiyələnib. Bu peşə çətin olsa da, şərəfli peşədir. Ümummilli liderimiz Heydər Əliyev gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə ciddi diqqət yetirərək "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" demişdir. Zabit peşəsi, doğrudan da, ən müqəddəs və vacib peşələrdən biridir. Çünki bu peşənin sahibləri Vətən qoruyucularıdır.

Gənc leytenant Natiq Bayramlı çıxış edərək Azərbaycan Ordusunun zabiti olmaqdan qürur duyduğunu vurğuladı.

- Kurs yoldaşlarım adından kurs müddətində bizim zəhmətimizi çəkən komandirlərimizə, hərbi biliklər öyrədən zabitlər və müəllimlərimizə təşəkkür edirəm. Kursu uğurla başa vurub zabit olduğumuz üçün sevincliyik. Layiqli xidmət edərək sizlərin etimadını doğruldacağımıza şübhəniz olmasın. Ürəyi zabit olmaq arzusu ilə döyünən gənclərə arzuladığı zabit peşəsinə yiyələnməyə imkan yaratdığı üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığımızı bildiririk. Çox şadam ki, mən də Azərbaycan Ordusunun zabiti adı ilə qürurlanacam. Söz veririk ki, zabit adını daim uca tutacaq, Azərbaycan Ordusunun adına layiq zabitlər olacağıq.

Sonra gənc zabitlərə leytenant rütbəsinin və sertifikatların təqdimi oldu. Tədbir kursantların təntənəli keçidi ilə başa çatdı.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98<br>Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Lalə HÜSEYNOVA | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 407<br>Nüsxə 4600 |